**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RÖYA MƏFTUN qızı MÜRŞÜDOVA**

# ÇAĞDAŞ AZƏRBAYCAN VƏ ALMAN ƏDƏBİYYATINDA ROMAN JANRI (1980-2005-CI ILLƏR)

5716.01 – Azərbaycan ədəbiyyatı
5718.01 – Dünya ədəbiyyatı (Alman ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

## A V T O R E F E R A T I

**BAKI-2017**

Dissertasiya işi AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsində yerinə yetirilimişdir.

**Elmi rəhbər:** **Bədirxan Balaca oğlu Əhmədov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Akif Əmirxan oğlu Bayramov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəhim Nadir oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası**

Müdafiə "____ "_________ 2017-ci il tarixdə, saat " ____"- da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan:** Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ____ "___________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru:** **İsmixan Məhəmməd oğlu Osmanlı**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Tarixin öz mürəkkəbliyi və gərgin dramatizmiilə səciyyələnən ictimai-siyasi prosesləri hər zaman bədii ədəbiyyata təsir göstərmiş, onun humanitar ideya istiqamətləri və meyillərinin müəyyənləşdirilməsində əhəmiyyətli yer tutmuşdur. Sosial və ictimai həyatın, insanın mənəvi dünyasının problemləri bədii yaradıcılığın müxtəlif janrlarında ifadə olunmuş, ədəbiyyat onların həlli yollarına yönəldilmişdir. Ədəbiyyatın digər janrları ilə müqayisədə roman istər ədəbi-fəlsəfi, istər psixolji, istərsə də sosial problemləri əks etdirmək baxımından yaradıcı şəxs qarşısında daha geniş imkanlar açır. Yaşadığımız dünyanın dərk olunması baxımından müasir romanların tədqiqi və təhlili vacib məsələlərdəndir.

Son dövrlərin humanitar düşüncəsi bütün dünyada baş verən ictimai-siyasi hadisələrin, sosial, mənəvi problemlərin yenidən dəyərləndirilməsi istiqamətindədir. Qloballaşmanın yeni pilləsini yaşayan və inteqrasiyaların qaçılmaz olduğu çağdaş dönəmdə bədii təfəkkürün çərçivəsi də genişlənir, yeni yanaşmalar və təmayüllər meydana çıxır: “Dünya ölkələri və xalqları arasında yaxınlaşma cəhdi istər ictimai, istər iqtisadi, istərsə də mədəni-mənəvi sahələrdə inteqrasiyanı sürətləndirərək elə bir həddə çatdırıb ki, bu planetar təfəkkürün formalaşmasına gətirib çıxarıb”[1]. Məhz “planetar təfəkkürün”, qlobal fikrin, ümumi tendensiyaların formalaşmasının nəticəsi olaraq müxtəllif milli ədəbiyyatların qarşılıqlı və əlaqəli şəkildə öyrənilməsi zərurəti meydana çıxmışdır.

Bədii ədəbiyyatın bəşəri hadisə olması müqayisəli ədəbiyyatşünaslığın ortaq predmetlərinin ortaya çıxmasına, eyni zamanda, qlobal düşüncəyə lokal münasibətin öyrənilməsinə əlverişli şərait yaradır. Bu baxımdan Azərbaycan və alman ədəbiyyatının qarşılıqlı şəkildə öyrənilməsi, komparativistikanın digər sahələrində olduğu kimi, həmin sferada da uyğun, ortaq, ümumi və fərqli cəhətlərin ortaya çıxarılmasına imkan verir. XX və XXI əsrin qovuşağında milli ədəbiyyatların yalnız öz sərhədləri dairəsində tədqiqinin qlobal humanitar düşüncəyə zidd olduğunu diqqətə alsaq, Azərbaycan və alman nəsrinin qarşılıqlı şəkildə araşdırılmasını da ədəbiyyatşünaslığımız qarşısında duran aktual məsələlərdən biri kimi qiymətləndirə bilərik. Danimarka estetiki G.M.Brandesin təbirincə desək, “ən

---

[1]Bayram A. Qərb ədəbiyyatı Azərbaycan filoloji fikrində. Bakı: Nurlan, 2006, s. 5.

istedadlı xalqın dahisi də ilhamını ümumdünyəvi və bəşəri dəyərlərdən almalıdır. Yalnız başqa millətlərin dahiləri ilə ünsiyyət və yaxınlıq ona həmişə təravətli qalmaq üçün təkan verir”[1]. Ədəbiyyatımızın çağdaş durumunu qiymətləndirmək, onun dünya ədəbi prosesindəki yeri və rolunu müyyən etmək üçün də müqayisəli tədqiqatların mühüm əhəmiyyəti vardır.

XX əsrdə Azərbaycan və alman ədəbiyyatında roman janrının inkişafı hər iki xalqın həyatında baş verən ictimai-siyasi hadisələrin ədəbiyyatda bütün reallığı ilə əks etdirilməsi ilə səciyyəvi olmuşdur. 1920-ci ildə Azərbaycanın, 1945-ci ildə isə Almaniyanın bir hissəsinin sovetlər tərəfindən işğalı və 80-ci illərin sonlarına qədər bu dövlətlərin siyasi təsir altında qalması hər iki xalqın taleyini yaxınlaşdıran oxşar hadisələrdəndir. Azərbaycan və alman xalqının bir müddət eyni ictimai-siyasi rejimin qurbanına çevrilməsi, müəyyən fərqlərlə yaşanan oxşar proseslər ədəbiyyatlarında da bir sıra ortaq məqamların, mövzu və süjetlərin meydana gəlməsinə səbəb olmuşdur. Totalitar rejimə uyğun münasibət, faşizm və sosializmin bənzər funksionallığı və xalqların taleyində mənfi rolu, insan mənəviyyatına yönəlmiş təzyiqlər hər iki xalqın ədəbiyyatında, xüsusilə də roman janrında öz əksini tapmışdır. Keçən əsrin 80-ci illərindən sonra tarixi hadisələrə münasibətin dəyişməsi bədii düşüncədə bəşəri motivlərin təsvirinə geniş imkanlar yaratmaqla bir daha Azərbaycan və alman nəsrində uyğun tendensiyaların formalaşmasına yol açmışdır.

Alman ədəbiyyatı digər Avropa ölkələrinin ədəbiyyatları ilə müqayisədə fərqli inkişaf yolu keçmişdir. Daha doğrusu, bu ölkədə baş verən ictimai-siyasi hadisələr, müəyyən mənada, onun ədəbiyyatının da inkişaf yolunu müəyyənləşdirmişdir. Almaniyanın dünyanın böyük bir hissəsi ilə müharibəyə başlaması, faşizmin insan qırğınlarına səbəb olması təkcə ölkənin deyil, bədii ədəbiyyatın da taleyini dəyişmişdir. 80-ci illərin əvvəllərindən başlayaraq romanın diqqəti məhz sözügedən problemlərə yönəlmiş, onlara münasibətdə bəşəri dəyərlərə üstünlük verilmişdir.

Bütövlükdə, 80-ci illərin ortalarından etibarən dünyada baş verən ictimai-siyasi proseslər ədəbi, bədii düşüncədə də yeni təmayüllər formalaşdırmışdır. Sovetlər Birliyinin dağılmağa doğru getməsi və Almaniyanın birləşməsi nasional-sosializmə yeni baxışı şərtləndirmişdir. Ölkənin birləşməsindən sonra yaxın tarixə - müharibə və onun törətdiyi faciələrə münasibətdə fərqli fikirlər meydana çıxmışdır. Müharibə zamanı törədilən fəlakətlərin təkcə rasional faşizmin deyil, həm də sosializm rejiminin

---

[1]Брандес Г. Литература XIX века в ее главных течениях. Санк-Петербург: 1895, с.370 .

ayağına yazılması kimi fikirlər səsləndirilməyə başlanılmışdır. 80-90-cı illərdə Almaniyanın daxilində gedən ideoloji meylin əsasında da məhz sözügedən tendensiya dayanırdı. Ona görə də, həmin mərhələdə siyası təfəkkürdə olduğu kimi, bədii düşüncədə də II Dünya müharibəsi zamanı almanların qəddarlığının qabardılması ilə yanaşı, almanların özlərinin də qarşlıqlı qəddarlığa uğraması haqqında fikirlər səsləndirilirdi.

Azərbaycanın ictimai-siyasi, ədəbi-bədii düşüncəsində də oxşar münasibət və fikirlər özünü göstərmişdir. Əgər müharibə illərində "Vur, ölən faşistdir" (M.Rahim) fikri istiqamətində çağırışlar edilirdisə, 60-70-ci illərdə müharibəyə baxış acısı köklü surətdə dəyişmişdir. 80-90-ci illərdə isə II Dünya müharibəsinin "yadlaşması" meyli güclənmişdir. Qarabağ uğrunda müharibə dərinləşdikcə II Dünya müharibəsinin ağrıları tamamilə unudulmağa başlanmış, mövcud müharibə haqqında əsərlər yazılmışdır.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Azərbaycan və alman ədəbiyyatının roman janrında qeyd edilən problemlərə oxşar baxışın, uyğun tendensiyaların olması və onların tədqiqi zərurətidir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işində başlıca araşdırma obyekti 1980-2005-ci illərdə Azərbaycan və alman ədəbiyyatında roman janrında yazılmış bədii nümunələrdir. Roman yaradıcılığının zəngin olduğu sözügedən mərhələdə Azərbaycan və alman romanlarını birləşdirən səciyyəvi xüsusiyyətlərə daha çox diqqət yetirilmişdir. Tədqiqat işində janrın inkişaf istiqamətləri, meyilləri, hər iki xalqın üzləşdiyi faciələri, mənəvi-əxlaqi problemləri əks etdirən əsərlərə üstünlük verilmişdir.

Tədqiqatın predmetini Azərbaycan nasirlərindən İsa Hüseynov, İsmayıl Şıxlı, Anar, Sabir Əhmədli, Elçin, Mövlud Süleymanlı, Kamal Abdulla, Nəriman Əbdülrəhmanlı, Vaqif Sultanlı, Nigar, Elçin Hüseynbəyli, İlqar Fəhmi, alman yazıçılarından Günter Qrass, Patrik Züskind, Kristian Kraxt, İnqo Şulç, İnqrid Noll, Bernxard Şlink, Seven Lager, Helmut Krausser, Monika Maron, Robert Şnayder, Xristof Ransmayr, Yelfride Yelenik, Marsel Bayer, Tomas Brussiq, Georq Osvald, Paskal Mersiye, Andreas Mayer, Vilhelm Genasiyo və digərlərinin əsərləri təşkil edir. Dissertasiyada hər iki xalqın ədəbiyyatında roman janrının inkişaf xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı Azərbaycan, alman və rus ədəbiyyatşünaslarının araşdırmalarına da yer verilmişdir.

**Mövzunun işlənmə dərəcəsi.** Ədəbiyyatşünaslığımızda Azərbaycan və alman ədəbi əlaqələrinə dair müxtəlif tədqiqatlar aparılmış, məqalələr yazılmış və bir çox monoqrafiyalar çap olunmuşdur. XXəsrin 30-cu illərindən başlayaraq ədəbiyyatşünaslardan Ə.Şərifzadə, M.Rəfili, Ə.Sultanlı, A.Ağayev, F.Vəlixanova, V.Arzumanlı, S.Tağızadə, V.Hacıyev,

M.Həyatzadə, A.Bayramov, S.Cəbrayılova və başqaları ədəbi əlaqələrimizin sözügedən sahəsində müxtəlif araşdırmalar aparmışlar. Son dövrlərdə isə O.Müslümova "Alman və Azərbaycan mühacirət ədəbiyyatında tipoloji oxşarlıqlar (1900-1945)", X.Zairova "Azərbaycan-alman ədəbi əlaqələri müasir filoloji kontekstdə" mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyaları müdafiə etmişlər. Lakin bütün bu araşdırmalar ədəbi əlaqələrin tarixi və müasir vəziyyəti kontekstində aparılmış, 1980-2005-ci illər Azərbaycan və alman romanının inkişaf meyilləri və istiqamətləri tədqiqatlardan kənarda qalmışdır. Bu dissertasiya işində 80-ci illərdən günümüzə qədər Azərbaycan və alman romanlarının uyğun və fərqli inkişaf yolu təhlil edilmiş, elmi-nəzəri qənaətlər göstərilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan və alman ədəbiyyatında roman janrının səciyyəvi inkişaf meyillərini öyrənmək, onu ortaq problemlər və bədii dəyərlər müstəvisindən təhlil etməkdən ibarətdir. Bu məqsədin reallaşması üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmidir:

- Azərbaycan və alman romanlarının nəsrin önəmli janrı kimitarixi inkişaf yollarına nəzər yetirmək;
- Çağdaş Azərbaycan və alman romanlarının spesifik xüsusiyyətlərini aşkara çıxartmaq;
- Müasir mərhələdə Azərbaycan və alman romanlarının xarakterini, problemlərini, istiqamətlərini araşdırmaq;
- Müasir Azərbaycan və alman romanlarında şəxsiyyət və cəmiyyət, insan və zaman problemlərini qarşılıqlı şəkildə tədqiq etmək;
- Romanlar əsasında hər iki xalqın bədii təfəkküründə şəxsiyyətin özgələşməsi problemini öyrənmək;
- Romanlarda yaddaşın bədii diskurs kimi yerini müəyyənləşdirmək;
- Çağdaş Azərbaycan və alman romanlarında həyat həqiqəti və bədii gerçəklik problemini tədqiq etmək;
- Roman janrında müharibə mövzusunu şərh etmək, ona tipoloji və fərqli yanaşmaları aşkara çıxartmaq;
- Roman janrında sosial-mənəvi həyatın və tarixin dərki problemini araşdırmaq.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi, hər şeydən əvvəl, Azərbaycan və alman ədəbiyyatında roman janrının çağdaş filoloji kontekstdə araşdırılmasında ilk tədqiqat əsəri olması ilə xarakterizə olunur. Tədqiqat işində ilk dəfə olaraq, Azərbaycan və alman romanlarının 1980-2005-ci illər dövrü janrın təşəkkülü və tarixi inkişaf mərhələlərinə də nəzər yetirməklə tədqiqata cəlb olunmuşdur. Dissertasiyada Azərbaycan və alman

romanları yalnız ideya-estetik baxımdan deyil, mövzu və problematika, onların Azərbaycan və alman bədii təfəkkürünün inkişafındakı rolu istiqamətlərindən də öyrənilmişdir. Azərbaycan və alman romanları müharibə, şəxsiyyətin özgələşməsi, yaddaş, şəxsiyyət və cəmiyyət, tənhalıq, özünüdərk və milli kökə bağlılıq, həyat həqiqətlərinin bədii təxəyyüldəki əksi və digər ədəbi-fəlsəfi, ictimai mövzular konteksində ilk dəfə araşdırılaraq ortaq, ümumi və fərqli cəhətlər meydana çıxarılmışdır.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işi çağdaş ədəbiyyatşünaslığın mühüm elmi-nəzəri prinsipləri nəzərə alınmaqla yazılmışdır. Problemin araşdırılması zamanı müqayisəli-tarixi metod, sistemli təhlil üsulları, eləcə də roman janrının inkişaf istiqamətlərinin tədqiqində tipoloji və fərqli yanaşmalar əsas götürülmüşdür. Tədqiqat işində Azərbaycan və alman romanlarından, həmçinin Azərbaycan, alman və rus elmi-nəzəri fikrinin əsas müddəalarından istifadə edilmişdir.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti.** Dissertasiyada aparılan araşdırmalar və onun nəticələri, irəli sürülən elmi-nəzəri qənaətlər və ümumiləşdirmələr Azərbaycan və alman ədəbiyyatında roman janrının müxtəlif problemlərinin öyrənilməsi baxımından əhəmiyyətli ola bilər. Eyni zamanda, dissertasiya işi gələcəkdə bu istiqamətdə aparılacaq yeni tədqiqatlar üçün də müəyyən imkanlar açır. Müqayisəli ədəbiyyatşünaslığın öyrənilməsi baxımından da mövcud tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti böyükdür. Ali məktəblərin filologiya fakültələrində xüsusi kurs və seminarların aparılması, dərs vəsaitlərinin hazırlanmasında da dissertasiya işinin nəzəri-təcrübi imkanlarından istifadə etmək olar.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İntitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas məzmunu, müddəa və nəticələri elmi məcmuələrdə dərc olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, qarşıya qoyulan əsas məqsəd və vəzifələr, mövzunun öyrənilmə səviyyəsi, elmi yeniliyi göstərlmiş, nəzəri-metodoloji əsasları, aprobasiyası açıqlanmışdır.

Dissertasiyanın **"Çağdaş Azərbaycan və alman ədəbiyyatında roman janrının səciyyəvi xüsusiyyətləri"** adlı I fəsli iki yarımfəsildən

ibarətdir. Birinci yarımfəsil **"Alman və Azərbaycan ədəbiyyatında roman janrının inkişafı tarixindən"** adlandırılmış və roman yaradıcılığının sözügedən ədəbiyyatlarda tarixi inkişaf mərhələləri öyrənilmişdir.

Roman janrı xalqın milli bədii təfəkkürünün inikasında əhəmiyyətli yer tutur. İctimai-siyasi proseslərin mövzu və problematika şəklində romanlarda öz əksini tapması onu sosial problemlərinin bədii həllinə yönəltmişdir. Roman janrı orta əsrlər dövründən başlayaraq "Qarqantua və Pantaqruel", "Don Kixot", "Robinzon Kruzonun macəraları", "Qulliverin səyahəti", "Gənc Verterin iztirabları" kimi dünya ədəbiyyatının dəyərli nümunələri ilə inkişaf edərək maarifçilik dövründə ən yüksək zirvəsinə çatmış, məlum tarixdən bu günə kimi müəyyən forma, struktur dəyişikliyə məruz qalmışdır. Lakin roman janrı bütün xalqların ədəbiyyatında eyni rola malik olmadığı kimi, eyni inkişaf yolu da keçməmişdir. Alman və Azərbaycan ədəbiyyatında da roman janrının fərqli inkişaf yolu keçməsi janrın tarixi mərhələlərinə nəzər yetirməyi tələb edir.

XII əsrin əvvəllərində Henrix fon Feldikinin alman ədəbiyyatında ilk cəngavərlik romanı kimi dəyərləndirilən "Eney haqqında roman"ı fikrin dərinliyi və təsvirin miqyası baxımından əhəmiyyət kəsb edirdi. Bu dövrdə yaşamış alman yazıçısı Hartman fon Auenin yazdığı "Erek" ("Erek"), "İveyn" ("Iwein"), "Qreqoriyus" ("Gregorius"), "Bədbəxt Henrix" ("Der arme Heinrich") adlı romanları müəllifinə böyük şöhrət gətirməklə yanaşı, janrın inkişafına təkan vermişdi. Volfram fon Eşenbaxın "Parsifal" ("Parzival") əsəri cəngavərlik romanlarının keyfiyyət etibarilə inkişafının nəticəsi kimi üzə çıxmışdır. Cəngavər Parsifalın həyat tarixçəsini əks etdirən, mənəvi-əxlaqi problemlərlə zəngin olan bu əsər XVII əsrdə alman ədəbiyyatında meydana gələn "tərbiyə romanları"nın (Bildungsroman) yaranmasında və inkişafında əsaslı rol oynamışdır. XII əsrin sonlarında Qotfrid Strasburskinin "Tristan və İzolda" romanı meydana çıxmış və müəllifinə şöhrət gətirmişdir. Lakin bu əsərdən sonra alman roman yaradıcılığında durğunluq nəzərə çarpır. XVII əsrin əvvəllərində Almaniya digər Avropa dövlətləri kimi Otuzillik müharibənin acısını yaşadığı üçün müharibənin gətirdiyi kədər hissi uzun illər alman ədəbiyyatında - əsərlərin mövzusunda, obrazların taleyində əksini tapmışdır. 1669-cu ildə meydana gələn Y.Qrimelhauzenin "Simplissmus" romanında müəllif qəhrəmanın həyatını otuzillik müharibənin fonunda təsvir edirdi. XVII əsrdən etibarən roman janrı inkişaf edərək, həm kəmiyyət, həm də keyfiyyət baxımından zənginləşmişdir. Bu dövrdən etibarən alman romanı məzmun, ideya, mövzu baxımından milli sərhədləri aşaraq, dünya ədəbiyyatının tərkib hissəsi kimi

inkişaf edirdi. K.M.Vilandın "Aqatonun tarixçəsi" (1766) adlı tərbiyə romanının ardınca K.F.Moriçin "Anton Rayzer" (1972-1973), F.Gelderlenin "Giperion"(1797-1799), Novalisin "Henrix fon Ofterdengen" (1802), Hötenin "Vilhelm Meysterin tələbəlik illəri" ("Wilhelm Meister's Apprenticeshir", 1795) romanları işıq üzü görmüşdür.

XIX əsrin birinci yarısında Friç Reyter, Teador Ştorm, Bertold Auerbax, Vilhelm Rabe kimi sənətkarlar "kiçik adam"ların obrazlarını yaradan romanlar yazsalar da, bu dövrdə nəsrin sözügedən forması daha çox məhəlli xüsusiyyət daşıyırdı. XIX əsrin sonu, XX əsrin əvvəlləri ictimai-siyasi kataklizmlərlə zəngin bir dövr kimi səciyyələnir. Arasıkəsilməyən inqilabların, müharibələrin doğurduğu əhval-ruhiyyənin nəticəsi olaraq meydana gələn ekzistensializm XX əsrin əvvələrində Almaniyada geniş vüsət almışdı. Bu ədəbi istiqamətin ən məşhur nümayəndələrinin təsirilə alman ədəbiyyatında da roman XX əsrin aparıcı janrına çevrilmişdir. Ekzistensial ruhda yazıb-yaradan alman yazarlarından G.Kazakın və E.Nossakın da romanları oxucular tərəfindən maraqla qarşılanırdı. Ekzistensial fəlsəfənin təsiri altında alman ədəbiyyatında modernist meyillərin inkişafı roman janrının forma və məzmununda əsaslı dəyişikliklərə səbəb olmuşdur. R.Remarkın "Qərb cəbhəsində təbəddülat yoxdur" "Üç yoldaş", "Zəfər tağı", "Kiçik adam" romanları mənəviyyat məsələlərinə üstünlük verirdi. Bu dövrdə müharibə mövzusuna həsr olunmuş romanlar üstünlük təşkil edirdi. XX əsrin əvvəllərində Fridrix Nitşenin fəlsəfəsi ölkənin idarə olunmasında əsaslı rol oynamağa başlamışdır. T.Mann, H.Mann, H.Hesse kimi yazıçılar əsərlərində görkəmli filosofun ideyalarını təbliğ edirdilər. XX əsrin əvvəllərində müasir roman anlayışı "Universitet illəri", "Viola Trikolor", "Psixeya" əsərlərin müəllifi Teodor Fontane tərəfindən daha da təkmilləşdirilmişdi.

1946-cı ildə Herman Hessenin "Yalquzaq" (1927) romanı Nobel mükafatına layiq görülmüşdü. Alman ədəbiyyatında "yeni sosial roman"nın yaradıcılarından olan Arnold Şveyqin "Ağ adamların böyük müharibəsi" (1927), "1914-cü ilin gənc qadını" (1931), "Vandsbekski baltası" (1943) romanları meydana gəlmişdi. II Dünya müharibəsi yazıçılara böyük zərbə vurmuş, ziyalılar mənəvi aşınmaya məruz qalaraq ölkəni tərk etmişdilər. Faşizm və müharibədən yazan Henrix Böll, Hans Verner Rixter, Ziqfred Lenç, Volfqanq Kyöppen, Günter Qrass, Anna Zegers, German Kant və başqalarının yaradıcılığında siyasi romanlar çoxluq təşkil edirdi. Bu dövrdə ədəbiyyat aləmində "yeni roman" adlı ədəbi istiqamət geniş vüsət almışdı. "Yeni roman"dan az sonra alman ədəbiyyatında postmodernizmə maraq

oyandı. Belə ki, P.Züskind, Ş.Barre, Y.Xerman, K.Kraxt və s. yazıçılar alman postmodernist romanının ən yaxşı nümunələrini yaratdılar.

Azərbaycan ədəbiyyatında ilkin roman nümunələri kimi səciyyələndirilən Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi", N.Nərimanovun "Bahadır və Sona", M.S.Ordubadinin "Bədbəxt milyonçu" kimi əsərləri dünya ədəbiyyatında xüsusi yer tutan romanlarla müqayisədə sözügedən ədəbi janrın tələblərini milli arenada ödəyirdi. Həmin əsərlərdəki ilkin roman rüşeyimləri janrın inkişafına zəmin yaratmaqla yanaşı, bir janr olaraq formalaşmasını da şərtləndirirdi. Sovet hakimiyyətinin qurulması nəticəsində Avropa və rus ədəbiyyatı ilə yaxından və mütəmadi tanışlıq Azərbaycan ədəbiyyatında yeni yaranan romanın dünya romançılıq ənənəsinə uyğun şəkildə inkişafına təkan vermişdi.

Azərbaycan ədəbiyyatında roman janrı alman romanlarından fərqli bir inkişaf yolu keçmişdir. Buna səbəb Azərbaycanda sözügedən janrın nisbətən sonrakı mərhələdə yaranması və fərqli siyasi arenada, ictimai-siyasi hadisələr kontekstində yazılmasıdır. Bu mənada Azərbaycan roman janrının inkişafı mərhələlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

1. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda roman janrının təşəkkülü. N.Nərimanovun "Bahadır və Sona", Z.Marağayinin "İbrahim bəyin səyahətnaməsi" əsərləri milli bədii təfəkkürdə janrın ilk nümunələri olmuşdur. XX əsrin əvvəllərində S.M.Qənizadənin "Məktubati Şeyda bəy Şirvani" dilogiya romanı janrın strukturunu zənginləşdirməsi baxımından diqqət çəkir. İ.Musabəyovun "Neft və milyonlar səltənətində", M.S.Ordubadinin "Bədbəxt milyonçu" romanları da bu mərhələdə yazılaraq janrı mövzu və problematika baxımından irəli aparılmışdır. Bolşeviklərin hakimiyyətə gəlməsindən sonrakı ilk iki onillikdə isə roman janrı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

2. Azərbaycan romanının təşəkkülündə 1930-50-ci illəri ayrıca bir mərhələ kimi qeyd etmək lazımdır. Belə ki, həmin mərhələdə Azərbaycan romanı yalnız mövzu, ideya baxımından deyil, struktur baxımından da inkişaf etmiş, dünya romanlarına bir qədər də yaxınlaşmışdır. Bu mərhələdə Azərbaycan romanı, əsasən, dörd istiqamətdə təzahür etmişdir:

a) Tarixi mövzuda yazılmış Azərbaycan romanları. Buraya Y.V.Çəmənzəminlinin "Qızlar bulağı", "Qan içində", M.S.Ordubadinin "Qılınc və qələm", A.Zöhrabbəyovun "Odlu diyar" və s. romanlarını aid etmək olar.

b) Yaxın keçmişin ictimai-siyasi hadisələrini əks etdirən romanlar: M.S.Ordubadi "Gizli Bakı", "Döyüşən şəhər", "Dumanlı Təbriz",

M.Hüseyn "Səhər", "Komissar", S.Rəhman "Nina", M.İbrahimov "Gələcək gün", "Pərvanə", A.Şaiqin "Araz", və s.

c) Yeni quruculuq işləri mövzusunda yazılmış romanlar: Ə.Ələkbərzadə "Dünya qopur", "Yoxuşlar", S.Rəhimov "Şamo", " Saçlı", M.Hüseyn "Abşeron", "Qara daşlar", və s.

d) Müharibə mövzusu. Bu istiqamət Azərbaycan roman janrına ötən əsrin 40-50-ci illərində daxil olmuşdur. İkinci dünya müharibəsinin başlanması ilə milli roman janrının mövzu və problematikasına daxil olan adıgedən cəhət həm də alman roman janrı ilə tipoloji oxşarlıq baxımından maraq doğurur.

3. Azərbaycan romanı 50-ci illərin ortalarından başlayaraq yeni bir inkişaf yolu keçmişdir. 60-cı illər ədəbiyyatının ən səciyyəvi xüsusiyyətlərindən biri milli romanın süjet, ideya, mövzu və struktur baxımından dünya roman janrına daha da yaxınlaşmasından ibarət olmuşdur. 60-cı illərdən başlayaraq cəmiyyətdə baş verən dərin, hərtərəfli dəyişikliklər yazarların yaradıcılığında da özünü göstərirdi. İnsanın daxili dünyasına getdikcə daha çox nüfuz edilir, şəxsiyyət və mühit qarşıdurmasında birincinin rolu və yeri əsas başlanğıc kimi qiymətləndirilirdi. Yeni Azərbaycan nəsrinin nümayəndələri İ.Hüseynov, Anar, Elçin, S.Əhmədov, İ.Əfəndiyev və başqalarının romanlarında dünya ədəbiyyatında mövcud olan tənhalıq problemlərinin izləri görünməyə başlamışdı. İ.Əfəndiyev, İ.Şıxlı, İ.Hüseynovun romanları Azərbaycan nəsrinə mövzu və problematika baxımından yenilik gətirmişdi. İ.Əfəndiyevin "Körpüsalanlar", İ.Şıxlının "Dəli Kür", İ.Hüseynovun "Yanar ürək" romanlarındakı müxtəliflik, hadisələrə yanaşma və təsvir əlvanlığı bədii düşüncədə yeni təmayüllərin gəlişindən xəbər verirdi.

I fəslin ikinci yarımfəsli **"Azərbaycan və alman romanları yeni mərhələdə"** adlanır. 80-ci illərdən başlayaraq Azərbaycan romanı özünün yeni mərhələsinə qədəm qoymuşdu. Bunu şərtləndirən cəhət, hər şeydən əvvəl, romanın müəyyən inkişaf yolu keçərək dünya təcrübəsinə yaxınlaşmasıdır. Azərbaycan romanı ənənəvi mövzulardan qurtularaq mövzu, problematika və poetika cəhətdən zənginləşir. "80-ci illəri hətta Azərbaycan romanının inkişafı tarixində xüsusi bir "mərhələ" kimi fərqləndirmək də mümkündür. Obrazlı demiş olsaq, bu onillikdə Azərbaycan bədii nəsri özünün "roman dövrü"nü yaşayır"[1]. 90-cı illər və yeni əsrin əvvəlləri də romanın yeni inkişaf mərhələsi kimi səciyyələnə

[1]Salamoğlu T. Müasir Azərbaycan romanı: janr təkamülü (XX əsrin 80-ci illəri). Bakı: Nafta-Press, 2005, s. 11.

bilər. Azərbaycan özünün müstəqilliyini qazandıqdan sonra dünyaya inteqrasiya imkanları da genişlənirdi.

Yeni mərhələ alman roman yaradıcılığında da fərqli xüsusiyyətləri ilə meydana çıxmışdır. Alman ədəbiyyatşünası İ. Xilşer 90-cı illərdə yaranan müasir alman nəsrini müəlliflərin müraciət etdiyi mövzulara görə üç qrupa ayırmışdı: 1) "Pop-ədəbiyyatçılar"- K.Kraxt, E.Natters, fon Ştukrad Barred; 2) "Yeni hekayəçilər": Y.Xerman, Y.Frank, Q.Osvald. Bu müəlliflər məhəbbətdən, laqeyidlikdən, gənclərin dünyəvi əhval-ruhiyyəsindən yazırlar; 3) Tarixi istiqamətin təmsilçiləri: T.Brussiq, K.Şmidt, M.Kumpfüller".

80-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan bədii nəsrində yaranan "roman bumu" janrı yeni bir mərhələyə daşımışdır. Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi", Elçinin "Ağ Dəvə", "Mahmud və Məryəm", İ.Məlikzadənin "Qırmızı yağış", Y.Səmədoğlunun "Qətl günü", M.Süleymanlının "Köç", "Səs", "Günah duası", S.Əhmədlinin "Yasamal gölündə qayıqlar üzürdü", "Azığa doğru", Ç.Hüseynovun "Fətəli fəthi", İ.Hüseynovun "İdeal", "Əbədiyyət", H.Abbaszadənin "General", eləcə də, F.Kərimzadə, Ə.Cəfərzadə, Ə.Nicat və başqalarının tarixi romanları janrın inkişafını şərtləndirmiş, onu mövzu, problematika, süjet və struktur baxımından inkişaf etdirmişdir. Sözügedən romanların başlıca mövzu və ideyası xalqın keçmişi və müasir mərhələsində keçdiyi inkişaf yolunu bədii cəhətdən təsvir etmək idi.

Bu yarımfəsildə S.Əhmədlinin "Dünyanın arşını",M.Süleymanlının "Köç", "Səs", "Günah duası" və "Ceviz qurdu", R.Dünyamalının "Tərsinə addımlayan kölgələr", İ.Hüseynovun "İdeal" romanlarıalman ədəbiyyatından M.Maronun "Animal triste", A.Mayerin "Ruhlar günü", M.Beyerin "Uçan itlər" və digər romanlar ilə müqayisəli şəkildə araşdırılmışdır. Təhlil olunan əsərlərdə yaddaş, nəsillər arasındakı əlaqə, nasizm və sosializmin törətdiyi facilər öz əksini tapmışdır.

M.Maronun "Animal triste" romanında sosialist Almaniyasından fərqli bir cəmiyyətdə böyümüş Frans ruhən azad və fiziki cəhətdən sağlamdır. Onun fikrincə, "kişi ev tikməli, kitab yazmalı və özündən sonra bir oğul övladı qoymalıdır". Düşüncə baxımından Frans S.Əhmədlinin "Azığa doğru" romanının qəhrəmanı Valeh müəllimə daha çox yaxındır. Belə ki, Valeh müəllim də düşünür ki, hər bir kişinin doğma evi, yuvası olmalıdır. Hər iki qəhrəmanın evinin olmasına baxmayaraq "yurdsuzluqları" ictimai-siyasi hadisələrin doğurduğu qlobal problem kimi qavranılır. "Azığa doğru" romanı yaddaşla bağlı yazılan əsərlər silsiləsindəndir.

Görkəmli yazıçı İsa Hüseynovun "İdeal" romanı milli-tarixi yaddaşın oyanması, araşdırılması baxımdan dəyərli sənət nümunəsidir. Yazıçı dönə-dönə bugünkü ictimai-siyasi problemlərimizin yüz illər öncə buraxılan səhvlərə dayanıqlı olması həqiqətinə işarə etmişdir. Sultan Əmirlinin Səməd Əmirliyə danışdıqlarından qardaşoğluna onun soyu, kökü haqqında çox şeylər bəlli olur. Sultanın "dünyamızın keçmişini bilmir insan. Həqiqətin, yaxşının, pisin nə olduğunu qanmır", -deməsi ilə yazıçı xalqımızın zamanında keçmişindən xəbərsiz olmasının ciddi milli faciələrə gətirib çıxartdığını göstərməyə çalışmışdır. Ölkəmizin iki yerə parçalanması, ərazilərimizə ermənilərin, rusların və digər millətlərin köçürülməsi, düşünən ziyalılarımızın öldürülməsi millətimizi məhv etməyə hesablanmış addımlar idi ki, Sultan sevimli qardaşoğluna-varisinə tarixi həqiqətləri anladırdı: "Dərk eləyirsənmi ki, qulsan sən?! Vətənin parça-parça, rusun, farsın, ermənimin, gürcünün əlində müstəmləkə! Millətini aramsız qırırlar! Aramsız! Gecələr! Səssiz-səmirsiz, doldururlar maşınlara! Yurdun viran qalır! Sən isə "Yaşasın Stalin!"-deyirsən! Çünki korsan! Korsan!.."[1]. İ.Hüseynov sovet diktaturasının yalançı ideologiya ilə xalqın zehnini məhv etməsini millətimizin tarixi faciəsi kimi dəyərləndirmişdir.

80-ci illərdə Azərbaycan və alman romanlarının yeni mərhələyə daxil olmasını şərtləndirən amilləri nəzərdən keçirərkən aydın olur ki, bu mərhələdə yaranan romanlar arasında mövzu və problematika yaxınlığı ilə yanaşı, ideya yaxınlığı da mövcud olmuşdur. Həmin illərdə yazılan Azərbaycan və alman romanlarında mövcud vəziyyətlə barışmazlıq, gələcəyə baxış və yeni Azərbaycan və Almaniya ilə bağlı fikirlər səslənmişdir.

Dissertasiyanın II fəsli **"Çağdaş Azərbaycan və alman romanlarında şəxsiyyət və cəmiyyət problemi"** adlanır və iki yarımfəsildən ibarətdir.

"**Cəmiyyətdə şəxsiyyətin özgələşməsi problemi"** adlı birinci yarımfəsildə Azərbaycan və alman romanlarında öz əksini tapmış şəxsiyyətin özgələşməsi, onun törədən səbəblər və nəticələri araşdırılmışdır. 60-70-ci illərdən başlayaraq ədəbiyyatımızda həyat həqiqətləri və bədii gerçəklik problemi öz həllini tapmış olur, Azərbaycan yazıçılarının yaradıcılığında cəmiyyət problemləri, şəxsiyyətin bütövlüyü, xarakterinin səciyyəvi xüsusiyyətləri, onun cəmiyyət hadisələrinə fərdi və ictimai baxışı geniş yer tutmağa başlamışdır. İ.Hüseynov, İ.Əfəndiyev, Anar, Elçin, Ç.Hüseynov, İ.Məlikzadə, S.Əhmədov, Y.Səmədoğlu və başqalarının

[1]Hüseynov İ. İdeal. Bakı: "Lider" nəşriyyatı, 2005, s. 55.

romanlarında şəxsiyyət və cəmiyyətlə bağlı yeni stereotiplər formlaşdırılmışdır. Bu mərhələdə Azərbaycan romanı hadisə və problemləri təsvir etmək nöqteyi-nəzərindən milli romançılıqdan daha çox dünya romanının çağdaş ənənəsinə söykənmiş olur. Anar, Elçin, S.Əhmədov, K.Abdulla, A.Məsud, S.Səxavət, A.Abbas, E.Hüseynbəyli, N.Əbdürrəhmanlı, İ.Fəhmi və başqalarının romanlarında cəmiyyət, sosial həyat problemləri psixoloji aspektdə təsvir edilmişdir. Bu yazıçıların romanlarında mövzu və problematika ənənəvi romançılıqdan fərqli olduğu kimi, cəmiyyət və şəxsiyyət probleminə də fərqli münasibət diqqəti cəlb edir. Cəmiyyət və onun nöqsanlarından kənara çıxan kişi və qadın obrazları, sosial mühit və ierarxiya və s. yeni cəmiyyət kontekstində öz əksini tapmışdır.

Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Otel otağı", M.Süleymanlının "Səs", "Günah duası", S.Əhmədovun "Toğana", "Azığa doğru", "Dünyanın arşını", "Kütlə", "Kef", S.Səxavətin "Daş evlər", "Nekroloq", "Yəhudi əlifbası, S.Azərinin "Dalanda", N.Əbdülrəhmanlının "Yalqız", "Yolçu", A.Yeniseyin "Cənnətdə terror aksiyası", V.Sultanlının "İnsan dənizi", H.Herisçinin "Nekroloq", E.Hüseynbəylinin "Balıq adam", "Tut ağacı boyunca", İ.Fəhminin "Akvarium", "Aktrisa", Ə.Əmirlinin "Ölü doğan şəhər" və başqa romanlarda cəmiyyət və şəxsiyyət problemi bədii təhlil obyekti olmuşdur.

Yazıçı V.Sultanlının "İnsan dənizi" romanında ömrünü başa vuran sovet cəmiyyəti və bu cəmiyyətdə insana verilən dəyər, insanın özgələşməsi problemi başlıca yer tutur. Yazıçı Sovetlər dövrünü təsvir edərkən Əkrəmin cəmiyyətdə özünə yer tapmayaraq ağır və çətin günlər yaşamasını göstərmişdir. İdarə rəhbəri Göyüşovla aralarında olan konflikt nəticəsində ləyaqətini qoruyaraq onu öldürən fəhlə Əkrəmin həbs günləri və sonrakı həyatı romanda insan və cəmiyyət problemi müstəvisində həll edilmişdir. Əsərdə ümidlərinin gerçəkləşməsi naminə keçilən yol, dəmir parçası ilə bıçaqlanmış ölüm, səfilləşmiş həyat, gülüş hədəfinə çevrilmiş tale, tapdanmış ləyaqət, heç kimə lazım olmayan, ölümə doğru gedən qatardaca başa vurulmuş ömürün faciəsini görürük. Ümumiyyətlə, dünya ədəbiyyatında ölümlə mübarizə aparan, ondan yaxa qurtarmaq üçün yollar arayan ədəbi qəhrəmanlarla müqayisədə Əkrəm Azərbaycan romanında yeni obraz idi. Əkrəmin faciəsi nə qədərdirsə, V.Sultanlının da yazıçı uğuru bir o qədər olmuşdur.

Müasir alman ədəbiyyatında özünəməxsus yer tutan yazıçı Helmut Krausser də "Zəngin dünya" ("Fette Welt", 2002) romanında səfil həyat sürən gənclərin həyatını təsvir etmişdir. Tom, Milli, Volfi, Edqar Krausser kimi səfil həyat sürən qəhrəmanların həyat tarixçəsi gözümüz qarşında

canlandıqca onların zəngin mənəvi aləmi, arzu və istəkləri üzə çıxır. Yazıçı səfil sifətində hər gün qarşımıza çıxan insanların taleyi haqqında bizi bir daha düşünməyə sövq edir. Əgər Əkrəmin ən böyük arzusu balalarına qovuşmaqdırsa, Tomun məqsədi Qavayaya getməkdir. Digər qəhrəman Xagen isə Mikelancelonun evinə gedib onun royalında çalmaq istəyi ilə yaşayır. Yazıçı qəhrəmanının "xəyal edirəm ki, Mikelancelonun evinə gedib onun royalında çalardım. Əgər mən uşaq vaxtı pianino çalmağı bilsəydim, indi küçədə olmazdım. Mən o vaxtı azadlıqdan məhrum idim. Pianino insanı evə bağlayır, insanın evlə bağlı təfəkkürünü təkmilləşdirir. Amma divarlara mən heç vaxt dözə bilmirəm, tab gətirə bilmirəm"[1] sözlərinə siyasi don geyindirmiş, Almaniyanı iki yerə parçalayan Berlin divarını nəzərdə tutaraq insanların qəlbində "divarlara" qarşı oyanmış ikrah hissini ifadə etmişdir. Bernxard Şlinkin "Qiraətçi" ("Der Vorleser", 1995) romanında da məlum problem ətrafında maraqlı məqamlar üzə çıxır. Qərb və Şərq təfəkkürünün müxtəlif olmasına baxmayaraq "Qiraətçi" romanının qəhrəmanı Mixaellə Anarın "Beşmərətəbəli evin altıncı mərtəbəsi" romanının qəhrəmanı Zaurun ailələri arasında olan oxşar cəhətlər ümumi hadisələrin fonunda üzə çıxır, valideyn münasibəti şəxsiyyətin yetişmə-sində, formalaşmasında vacib amil kimi qavranılır və insan amili müxtəlif ədəbi aləmi birləşdirən səbəb kimi diqqəti çəkirdi.

Həm Mixaelin (B.Şlinkin "Qiraətçi"), həm də Zaurun (Anar "Beş mərtəbəli evin altıncı mərtəbəsi) atası professordur. Hər iki professor az danışan, qaradinməz insanlardır, onların öz dünyaları vardır. "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanında yazıçı Zaurun atasını belə təsvir etmişdir: "Ümumiyyətlə, az-az danışırdılar, atası elmə-kitablar aləminə qapılmış qaradinməz bir adam idi, arvadıyla nadir hallarda danışar, oğluyla demək olar ki, heç danışmazdı"[2]. Buna bənzər təsvirə "Qiraətçi" romanında da rast gəlirik: "Bəzən mənə elə gəlirdi ki, biz, yəni onun ailəsi, atam üçün nəsə ev heyvanları kimiyik. Necə ki, insanlar ev heyvanlarına qulluq edirlər və bu onlar üçün elə də ağır yük deyil. Amma mən çox istəyirdim ki, biz onun həyatının mənası olaq"[3]. Avropa mühitində övladlara olan soyuq münasibət bir çox romanlarda əsas problem kimi mütəmadi olaraq qaldırılmışdır. Ailənin sadəcə bir model olaraq qalması, onun tərkibini təşkil edən insanların bir-birinə qarşı soyuq münasibəti "Qiraətçi" romanında ciddi sosial problem kimi qoyulmuş və yazıçı tərəfindən xüsusi

---

[1]Krausser H. Fette Welt. Roman. Reinbek bei Hamburg: Rowohlt Taschenbuch Verlag. 2002, s.50

[2]Anar. Seçilmiş əsərləri. II cild. Bakı: "Lider" nəşriyyatı, 2004, s. 151.

[1]Şlink B. Qiraətçi. Bakı: "Qanun" nəşriyyatı, 2011, s. 34.

vurğu ilə işıqlandırılmışdır. Bu bölmədə K.Kraxtın “Faserland” (1995), H.Böllün “Bir təlxəyin düşüncələri” romanları da Anarın “Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsəri ilə müqayisə olunmuşdur.

Qərb və Şərq ailə modelini bu romanların əsasında təhlil edərkən alman romançılığında özgələşmə, tənhalıq mövzusunun başlıca yer tutduğunu söyləmək mümkündür. Alman romanlarından fərqli olaraq milli romançılığımızın bu yeni keyfiyyəti sonrakı inkişaf prosesində daha da təkmilləşmiş, onu dünya ədəbi prosesinə yaxınlaşdırmışdır.

II fəslin **“Müasir romanlarda yaradıcı insanın bədii obrazı”** adlı ikinci yarımfəslində Azərbaycan və alman romanları yaradıcı insanın-sənətkar obrazının təsviri baxımından araşdırılmışdır.

Hələ XIX əsrin əvvəllərində yaşamış alman yazarları L.Tik, Novalis və A.Hofmanın yaradıcılığında əksini tapan sənətkar obrazları dünya ədəbiyyatında “sənətkar haqqında roman” (Künstlerroman) anlayışının meydana gəlməsinə səbəb olmuşdur. Yaradıcı insanın - şairin, musiqiçinin, aktyorun, rəssamın obrazının yaradılması ənənəsi XX əsrdə də alman ədəbiyyatında davam etdirilmişdir. X.Ransmayrın “Sonuncu dünya”, P.Züskindin “Ətriyyatçı”, “Kontrabas”, R.Şnayderin “Yuxunun qardaşı”, Y.Yelenikin “Pianoçu”, K.Duvenin “Yağışın romanı” adlı əsərlərində bir-birindən fərqli həyat yolu keçmiş istedadlı, qeyri-adi qabiliyyətə malik olan, eyni zamanda da yaşadıqları mühitdə əzab çəkən, əhatə olunduqları insanlar tərəfindən başa düşülməyən sənətkarların bədii obrazı yaradılmışdır. Bu yarımfəsildə P.Züskindin “Ətriyyatçı” romanı Elçinin “Mahmud və Məryəm” və Y.Səmədoğlunun “Qətl günü” əsərləri ilə mövzu və problematikası fonunda müqayisə edilərək tədqiq olunmuşdur. Yaradıcı insan və cəmiyyət, insanların yeniliyi qəbul etmə məsələləri, ölüm və həyat, mövhumat, tənhalıq, təkliyə aparan yol, onun səbəbləri və nəticələri sözügedən romanların tədqiqində əsas götürülmüşdür.

Yaradıcı insanın- sənətkarın bədii obrazı XX əsrin II yarısında yazılan bir çox Azərbaycan romanlarında da öz əksini tapmışdır. M.C.Paşayev “Yolumuz hayanadır”, S.Dağlı “Bahar oğlu”, Ə.Cəfərzadə “Aləmdə səsim var mənim”, “Vətənə qayıt”, “Eşq sultanı”, İ.Hüseynov “Məşhər”, Ə.Nicat “Nəğməyə dönmüş ömür”, O.Salamzadə “Əsrlərin sirri”, “Sevgi iztirabı”, Ə.Babayeva “Bəlkə sabah olmadı”, S.Əhmədli “Yasamal gölündə qayıqlar üzürdü”, N.Əbdürrəhmanlı “Yalqız”, Nigar “Sınmış sükut”, S.Alışarlı “Maestro”, İ.Fəhminin “Akvarium”, “Aktrisa” və s. romanları Azərbaycan ədəbiyyatında sənətkar haqqında yazılmış əsərlərdəndir. Həmin romanlarda yaşadıqları cəmiyyədə köməksiz qalan,

təklənən, tənhalaşan istedad sahiblərinin çətin, keşməkeşli, problemlərlə yüklü həyat yolu təsvir olunmuşdur.

Bu bölmədə, eyni zamanda, İ.Muğannanın "Məşhər", Ə.Cəfərzadənin "Aləmdə səsim var mənim", Ə.Babayevanın "Bəlkə sabah olmadı", İ.Fəhminin "Akvalanq və yaxud Yüngül bir yay oyunu", Nigarın "Sınmış sükut", S.Əhmədlinin "Yasamal gölündə qayıqlar üzürdü" romanları yaradıcı şəxsiyyətin bədii əsərdə əksi fonunda tədqiq edilmiş və yeri gəldikcə alman nəsr nümunələri ilə müqayisə olunmuşdur.

Dissertasiyanın III fəsli **"Çağdaş Azərbaycan və alman romanlarında həyat həqiqəti və bədii gerçəklik"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. **"Romanda müharibə mövzusu: fərdi və fərqli yanaşmalar"** adlı birinci yarımfəsil Azərbaycan və alman romanlarında müharibə mövzusunun tədqiqinə həsr olunmuşdur.

XX əsrin sonlarından başlayaraq II Dünya müharibəsi, faşizm "sosial-tarixi, mənəvi-psixoloji" aspektdən araşdırılmağa başlanılmışdı.II Dünya müharibəsini gözləri ilə görmüş yaradıcı nəslin əsərlərində göstərilirdi ki, geriyə-evlərinə qayıdan döyüşçülər yeni ictimai şəraitə uyğunlaşa bilmədikləri üçün psixoloji sarsıntı keçirir, cəmiyyətə adaptə ola bilmir, ruhi sarsıntının təsiri ilə özlərini və ailə üzvlərini məhv edirdilər. Yaxın keçmişdə baş vermiş müharibə E.Remark, H.Fallada, G.Kazak, A.Zegersin və s. yaradıclığında ümummilli, eyni zamanda da, qlobal hadisə kimi dəyərləndirilmişdir. Bu ədəbi nümunələrdə müharibənin anti-humanist mahiyyəti tənqid olunmuş, alman xalqının bütün bəşəriyyət qarşısındakı etirafı səsləndirilmişdir. Müharibədən sonra küskünləşmiş insanların həyatı, siyasi-iqtisadi böhran, vətənin gələcək taleyi bu dövrdə yazıb yaradan sənətkarların romanlarında əsas məsələlər idi. Alman yazıçıları məlum problemə yeni rakursdan yanaşaraq alman ədəbiyyatının "ümumdünyəvi nüfuzunu qaytarmağa çalışırdılar". H.Falladanın "Canavarla canavarlar arasında", "Dəmir Qustav", "Hər kəs tənhalıqda ölür", H.Kazakın "Çay yanında şəhər", Şunurrenin "Dəfnlər" romanları məhz belə mürəkkəb, ziddiyyətli, xaotik bir dövrün məhsulu idi. Bu əsərlərdə tənqid hədəfi təkcə faşizm, sosializm yox, istənilən totalitar cəmiyyət idi. Müharibənin iştirakçısı kimi onun dəhşətlərini görmüş H.Böll, G.Qrass, M.Valzer, Z.Lenç kimi yazarlar II Dünya müharibəsinin simasında əsrlər boyu bəşəriyyətə, inkişafa zidd olan müharibələri lənətləyirdilər.

Nasist mövzusu 90-cı illərdə yazan yazıçıların yaradıcılığında da əhəmiyyətini itirməmişdir. B.Şlinkin "Qiraətçi", M.Maronun "Animal triste", H.Krausserin "Zəngin dünya", U.Timmenin "Karri" kolbasasının mənası", Seven Lagerin "Fosfor", X.Ransmayrın "Kitaxara xəstəliyi",

M.Beyerin “Uçan itlər”, M.Kümpfüllerin “Xamperin qaçışı”, F.İlliesanın “Günahsızcasına rəhbərlik”, T.Brussiqin “Bizim kimi qəhrəmanlar” adlı romanlarında hədəf müharibədən daha çox onun insan zehnində və yaddaşında buraxdığı xoşagəlməz fəsadlar, ağrılı-acılı xatirələr, sağalmaq bilməyən mənəvi yaralardır. Bu bölmədə B.Şlinkin “Qiraətçi” romanı təhlil edilmiş və digər məşhur alman yazıçısı H.Böllün “Bir təlxəyin düşüncələri” əsəri ilə müqayisə olunmuşdur.

Azərbaycan ədəbiyyatının 60-70-ci illər mərhələsində də II Dünya müharibəsinin dəhşətlərini təsvir edən romanlar yazılmışdır. Xüsusilə, H.Seyidbəyli, İ.Hüseynov, H.Abbaszadə, S.Əhmədov, V.Nəsib və başqalarının romanlarında müharibə mövzusu başlıca yer tutur. 90-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan arealında müharibəyə əvvəlki münasibət dəyişmişdir. S.Əhmədlinin “Gedənlərin qayıtmağı” romanında müharibənin dəhşətlərindən daha çox yaxınlarını cəbhəyə yola salmış insanların o illərdə çəkdikləri maddi və mənəvi çətinliklər, müharibənin daxili yaşantıları əks olunmuşdur.

M.İbrahimbəyovun “Dənizdə qasırğa”adlı tarixi-sərgüzəşt romanı 1941-45-ci müharibə illərindəki siyasi olaylardan bəhs edir. Hitler hakimiyyətinə nifrət və faşistlərin törətdikləri vəhşiliklərin simasında müharibələrə qarşı etiraz motivi yazıçının bütün dünyaya çatdırmaq istədiyi mesajdır:

“- Bu adam kimdir? Niyə belə hirslidir?

- Adolf Hitlerdir. Özü də hirsli-zad deyil, əksinə. Kefi kökdür. O böyük uğur qazanıb, Məmməd. Avropanın yarısını tutub, -radioya qulaq verib, eşitdiklərini tərcümə edir: -Deyir, guya Allah onu yer üzünə bir məqsədlə göndərib: Alman xalqını xoşbəxt etmək. Və o həmin məqsədə çatmaq yolunda heç bir maneə qarşısında dayanmayacaq”[1].Yazıçı romanda Kamal adlı gənc neft aliminin ixtiraları nəticəsində ordunu neftlə təmin edən Azərbaycanın baş verəcək qələbədə çox böyük payı olduğuna işarə etmişdir.

Adolf Hitler haqqında oxşar təsvirlərə alman yazarı K.Haynın “Villenbrok” (“Willenbrock”, 2000) romanında da rast gəlirik: “Onun yaxşı, maraqlı ideyaları var idi. O, iyirmi ildə elə şeylər etmişdi ki, əvvəlki siyasətçilərin yuxusuna da girməmişdi. Onun haqqında nə deməlerinə baxmayaraq, o, banditləri çox yaxşı idarə edirdi”[2].

---

[1]İbrahimbəyov M. Seçilmiş əsərləri. İki cilddə. II c., Bakı: Avrasiya Press, 2004, s.13.

[2]Hein Chr. Willenbrock. Frankfurt a/ M: Suhrkamp. 2000, s.72

S.Əhmədovun müstəqillik dövrünün məhsulu olan “Axirət sevdası”, “Kef”, “Ömür urası”, A.Abbasın “Dolu” “Allahını qatil edənlər”, Nigarın “Daş hasar”, G.Lətifxanın “Azər və Aida”, F.Güneyin “Qara qan”, S.Səxavətin “Nekroloq”, M.Süleymanlının “Erməni əlifbasındakı hərflər”, F.Qocanın “Ölüm ayrılıq deyil”, M.Abdullanın “Əvvəl. Axır” romanlarında isə Qarabağ müharibəsi bədii tədqiqat obyektinə çevrilmişdir. Bu yarımfəsildə Elçinin “Ağ dəvə” romanında bir məhəllənin timsalında müharibənin müxtəlif ailələrə gətirdiyi fəlakətlər təhlil edilmiş, müharibə qlobal faciə kimi dəyərləndirilmişdir. Azərbaycan yazıçısının romanı alman nasiri B.Şlinkin əsəri ilə analoji təhlildə təqdim edilmişdir. Bu yarımfəsildə H.Krausserin “Zəngin dünya”, V.Şnurrenin “Yabançı”, M.Maronun “Animal triste”, K.Kraxtın “Faserland”, U.Timmin romanları S.Əhmədlinin “Axirət sevdası”, “Ömür urası”, Anarın “Otel otağı”, Nigarın “Daş asar” əsərləri ilə müqayisəli tədqiqdə araşdırılmış, müharibə mövzusunda Azərbaycan və alman ədəbiyyatındakı uyğun və fərqli cəhətlər meydana çıxarılmışdır. Qarabağ müharibəsinin dəhşətlərini əks etdirən S.Əhmədlinin “Axirət sevdası”, “Ömür urası” romanlarında milli tariximizin çox yaxın dövrlərində baş verən fəlakətlər, şəhid ailələrinin faciələri bu bölmədə geniş şəkildə təhlil olunmuşdur.

III fəslin ikinci yarımfəsli **“Müasir roman yaradıcılığında sosial-mənəvi həyatın dərki”** adlanır. XX əsrin sonu XXI əsrin əvvəllərində Azərbaycan və alman romançılığında bir canlanma hiss olunur. Azərbaycan ədəbiyyatının heç bir zaman kəsiyində bu qədər roman yazılmamışdır. İ.Hüseynovun “İdeal”, “Əbədiyyət”, “Cəhənnəm”, İ.Şıxlının “Ölən dünyam”, Anarın “Otel otağı”, “Ağ qoç, qara qoç”, Elçinin “Mahmud və Məryəm”, K.Abdullanın “Yarımçıq əlyazma”, “Sehrbazlar dərəsi”, “Unutmağa kimsə yox”, A.Rəhimovun “Kabus”, N.Əbdülrəhmanlının “Yalqız”, “Yolçu”, “Könül elçisi”, İ.Fəhminin “Akvarium”, “Aktrisa, “Qarğa yuvası”, “Bakı tarixindən kollaj”, “Akvalanq, yaxud Yüngül bir yay oyunu”, E.Hüseynbəylinin “Balıq adam”, “Tut ağacı boyunca”, “Yovşan qağayılar”, “Metro vadisi”, “Don Juan, yaxud On üçüncü Həvari” və onlarla yazıçının romanları yalnız məhsuldarlıq cəhətdən fərqlənmir, həm də də mövzu, problematika, obraz, süjet xətti baxımından yeni meyilləri ortaya çıxarırdı.

Alman ədəbiyyatında da eyni mənzərə müşahidə olunur. K.Byöldlinin “Kristilizasiyanın tədqiqi” (“Studie in Kristallbildung”, 1991), “Abiskodan Cənuba” (“Sudlich von Abisko”, 2000), K.Kraxtın “Faserland” (1999), “1979”, M.Maronun “Animal triste”, F.Xenninqin “Hər şey oğurlanmışdı” (“Alles nur geklaut”, 1999), G. Osvaldın “Hər şey

hesaba alınır" ("Alles was zählt", 2000), E.Yelenikin "Pianoçu" ("Die Klavierspieleren", 2002), S.Lagerin "Fosfor" ("Phosphor", 2000), T.Dyukersin "Oyun zonası" ("Spielzone", 2002), M.Billerin "Qızım" ("Die Tochter", 2000), və s. romanlarda dünya və insan probleminə geniş yer verilmişdir. Bu problemlərin bədii həllində postmodernist düşüncənin təşəkkülü əsas rol oynayırdı.

Postmodernist roman hər şeydən əvvəl yeni üslubların meydana gəlməsi ilə şərtlənir. Postmodernist düşüncədə estetik-bədii meyarlar dəyişir, obrazlar yeni rakursda göstərilir, tarixi hadisə və şəxsiyyətlərə birmənalı münasibət bildirilmir və bununla yanaşı müəllif oyunları ilə müşahidə edilir. Postmodernizm alman ədəbiyyatında bir qədər gec, 80-ci illərdə təşəkkül tapmağa başlamışdır. İlk dəfə B.Ştrausun "Gənc adam" (1984), P.Züskindin "Ətriyyatçı" ("Das Parfum", 1985), X.Ransmayrın "Sonuncu dünya" romanlarında interperetasiyadan istifadə olunmuşdur. Bu əsərlərin ardınca B. Morsxoyzerin "Berlin imitasiyası" (1989), T.Xetkenin "Lüdovik əvvəl ölməlidi" (1989), U.Vidmerin "Mavi sifon" (1992), M.Kyölmayerin "Telemax" (1995), E. Xaklyanın "Sara və Simon" (1995) və s. romanları yazıldı. Bu cəhətdən 90-cı illər alman xalqının yeni dünyada və yeniləşən Avropada özünütəsdiq istiqamətində aparılan gərgin axtarış illəri idi. Bu müəlliflərdən T.Brussiq, K.Ransmayr, İ.Şulç, B.fon Ştukrad-Barre, K.Kraxt, T.Dyukers, B.Lebertin adlarını çəkmək olar. Həmin müəlliflər öz əsərlərində həyat və cəmiyyət haqqında düşüncələrini sistemləşdirmiş, sözün əsl mənasında, zamanın "sinirlərinə" toxuna bilmişdilər. Bu yarımfəsildə K.Kraxtın "Faserland" romanı Elçinin "Mahmud və Məryəm", İ.Fəhminin "Akvarium", "Aktrisa", "Akvalanq", N.Əbdürrəhmanlının "Yalqız", "Yolsuz" əsərləri ilə müqayisədə araşdırılmış, qlobal anlamda mənəvi böhran təhlil edilmiş, saf cəmiyyət arzuları ifadə olunmuşdur. N.Əbdülrəhmanlının "Yalqız" və "Yolsuz" romanlarında tənhalıq, yolsuzluq problemi Nobel mükafatı laureatı Yelfrida Yelenikin "Sevgililər" (1975), "Bağlı qapı arxasında", "Pianoçu"(1983) romanları ilə müqayisədə tədqiq edilmiş, əsərlərdə azadlıq hissinin boğulması nəticəsində cəmiyyətdə təklənən, tənhalaşan insanların bədii obrazlarının xüsusiyyətləri araşdırılmışdır.

III fəslin **"Azərbaycan və alman romanlarında yaddaş bədii diskurs kimi"** adlı üçüncü yarımfəslində yaddaş məsələsi romanın əsas bədii diskursu kimi öyrənilmişdir. Azərbaycan və Almaniyanın siyasi və ictimai tarixindəki oxşar hadisələr, ikiyə parçalanması, XX əsrin 90-cı illərində Almaniyanın birləşməsi və Azərbaycanın müstəqillik qazanması, eyni zamanda, Qarabağ müharibəsinin başlanması, hər iki xalqın

ədəbiyyatında, xüsusilə də roman janrında yazılmış əsərlərdə yaddaş problemini ön plana çıxarmışdır.

Müstəqillik illərindən sonra Azərbaycan ədəbiyyatında yeniliklər nəzərə çarpır. Bu yenilik əsərlərin həm mövzusunda, həm məzmununda, həm də ideyasında özünü nəzərə çarpdıracaq dərəcədə biruzə vermişdir. Yeni yaranan ədəbiyyat təkcə bu günün yox, dünənin, arxada qalmış, lakin, bu günümüzü təqib edən keçmişin ifadəsidir. 1990-cı illərindən sonra yaranan "yeni ədəbiyyat" yaradıcı şəxslər üçün iflasa uğramış müharibənin, bu günlə dünən arasında çabalayan tarixi yaddaşın, dərin mənəvi böhran keçirən insanların təsvirini yaratmaq cəhdləri ilə xarakterizə olunur.Bu yarımfəsildə M.Maronun "Animal triste", S.Lagerin "Fosfor", P.Mersiyenin "Lissabona gedən gecə qatarı" romanları İ.Əfəndiyevin "Geriyə baxma qoca", İ.Şıxlının "Ölən dünyam", Elçinin "Ölüm hökmü", E.Hüseynbəylinin "Yovşan qağayılar", K.Abdullanın "Yarımçıq əlyazma" əsərləri ilə müqayisəli şəkildə araşdırılmışdır. Bütün bu romanlarda ictimai mövzular məhəbbət süjetləri ilə vəhdətdə verilmiş, müxtəlif konflikt və qarşıdurmalar təsvir olunmuş, insan mənəviyyatı ilə bağlı məsələlər ortaya gətirilmiş, yaddaş və unutqanlıq diqqətə çatdırılmış, gerçək tarixi hadisələrin bədii təfəkkürə köçürülməsi məsələsinə nəzər salınmış, mənən "şikəst" olan insanların dramı tədqiqata cəlb olunmuşdur.

Tədqiqatın yekunu olaraq əldə edilmiş elmi-nəzəri qənaətlər dissertasiya işinin **"Nəticə"** hissəsində ümumiləşdirilmişdir.

Azərbaycan və alman romanlarının tədqiqat işində araşdırılan mərhələsi ilə bağlı aşağıdakı nəticələr əldə olunmuşdur:

1. 1980-2005-ci illərdə Azərbaycan və alman ədəbiyyatının roman yaradıcılığında özgələşmə, tənhalıq mövzusunun başlıca yer tutduğunu söyləmək mümkündür. Sözügedən mövzu alman ədəbiyyatında müəyyən tarixi ənənəyə mailk olmuşdursa, Azərbaycan roman yaradıcılığında yeni hadisə kimi müşahidə olunurdu. Milli romançılığımızın yeni keyfiyyəti təkmilləşərək onu dünya ədəbi prosesinə daha da yaxınlaşdırır.

2. İkinci dünya müharibəsindən sonra alman nəsrinin roman yaradıcılığında yaranan fasilə Berlin divarının uçurulmasından, Almaniya-nın birləşməsindən sonra yeni bir mərhələyə daxil olmuşdur. Ölkədə siyasi sitiuasiyaların dəyişməsi ədəbi mühitə də öz təsirini göstərirdi. 90-cı illərin sonlarına doğru alman nəsrində "Berlin romanları" yaranmağa başlamışdır. Şəxsiyyət və cəmiyyət problemi sözügedən dövrdə meydana gələn romanların əsasını təşkil edirdi.

3. XX əsrin II yarısından başlayaraq baş verən köklü dəyişikliklər təkcə Almaniyada deyil, bütövlükdə Qərbdə ictimai-siyasi hadisələrin yeni

istiqamət almasını şərtləndirirdi. Cəmiyyətdə olduğu kimi, ədəbiyyatda da nasional-sosializmin törətdiyi cinayətlər ilə birbaşa bağlı olan "ataların susmağı" səbəbi araşdırılır, tənqid olunur və ədəbiyyatın başlıca mövzusuna çevrilirdi. Çağdaş alman ədəbiyyatında G.Qrass, İ.Şulç, H.Krausser, B.Şlink, S.Lager, M.Maron, U.Timm, M.Beyerin və digər yazıçıların yaradıcılığında sözügedən problemə birbaşa, ya da dolayı yolla müraciət edilmiş, bir çox ictimai-siyasi, sosial problemlərə aydınlıq gətirilmişdir.

4. Azərbaycan ədəbiyyatında da roman janrı yenə mərhələdə şəxsiyyət və cəmiyyət probleminin əksi baxımından xeyli dərəcədə zənginləşmişdir. Əgər əvvəlki dövrlərdə yazılmış romanlarda cəmiyyət və şəxsiyyət probleminə epizodik şəkildə toxunulurdusa, 80-ci illərin ortalarından başlayaraq yazıçılara məsələ ilə əlaqədar məhdudiyyətlər qoyulmur. S.Azərinin "Dalanda", S.Əhmədlinin "Azığa doğru", "Yasamal gölündə qayıqlar üzürdü", "Toğana", Elçinin "Ölüm hökmü", S.Səxavətin "Nekroloq" kimi romanlarında şəxsiyyət və cəmiyyət problemi əvvəlki illərə nisbətən bir qədər də şərtiliklə təsvir edilmişdir.

5. 80-ci illərdə Azərbaycan və alman romanlarında sənətkar və sənət məsələsinə geniş yer verilmişdir. Bu mövzuda yazılan romanları bir ideya birləşdirir: Sənət və sənətkar həyatın gündəlik tələblərindən, məhdudiyyətlərdən uzaq olmalıdır. Təbiətin, varlığın mahiyyətini anlamaq, dünyanı və özünü dərketmək cəhdi "Sənətkar haqqında roman"ların əsasını təşkil edir, hər iki xalqın sənət haqqında düşüncələrini eyni müstəvidə birləşdirirdi.

6. Alman ədəbiyyatında olduğu kimi, Azərbaycan roman yaradıcılığında da II Dünya müharibəsi mövzusuna zaman-zaman müraciət olunmuş və müharibə meydanından daha çox, onun arxa cəbhədə, insanların həyatındakı təzahürünə diqqət göstərilmişdir. Bu mövzuda işlənmiş dünya ədəbiyyatı nümunələrini, o cümlədən, alman və Azərbaycan ədəbiyyatı örnəklərini "müharibə olmasın" kimi ümumi bir arzu birləşdirmişdir.

7. XX əsrin sonu XXI əsrin əvvəllərində Azərbaycan romançılığında bir canlanma müşahidə olunur. Azərbaycanda müstəqilliyin əldə olunması ədəbiyyatın inkişafına təsir göstərmişdir. Məhz bu mərhələdə Azərbaycan və alman ədəbiyyatında çoxsaylı romanlar yazılır. Bu dövr romanlarda mövzu, problematika, obraz, süjet xətti baxımından yeni meyilləri ortaya çıxarır.

8. Alman ədəbiyyatında da kəmiyyət və yeni meyllərin formalaşması baxımından 1980-2005-ci illər məhsuldar dövrdür. K.Kraxtın "Faserland",

“1979”, K.Duvenin “Yağışın romanı”, M.Maronun “Animal triste”, F.Xenninqin “Hər şey oğurlanmışdı”, M.Kurubyunun “İnsan və şəhər”, B.Ştrausun “Gənc adam” və s. romanlarında dünya və insan problemi ətrafındakı düşüncələr şərh olunmuşdur. Yeni dövrün əsas ədəbi axınlarından biri kimi postmodernist ədəbiyyat təşəkkül tapmışdır.

**Tədqiqatın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**


1. Dənizdən bir damla // Dil və ədəbiyyat. Bakı Dövlət Universiteti. Beynəlxalq elmi-nəzəri jurnal. 2006, № 2 (50), s. 98-99.
2. Sənətkar və zaman // “ Elmi axtarışlar” jurnalı, 2006, IX, s. 104-107.
3. Tarixin sınaq meydanında // Dil və ədəbiyyat. Bakı Dövlət Universiteti, Beynəlxalq elmi-nəzəri jurnal. 2006, № 3 (51), s. 87-89
4. Döyüşən qələm // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2009. III buraxılış, s.118-123
5. Nazilən və üzülən haqq... // “Filologiya məsələləri” jurnalı, 2009, №3, s.386-394.
6. Müasir roman janrının xüsusiyyətlərinə dair // “Filologiya məsələləri” jurnalı, 2010, №9, s.329-336.
7. Roman janrı: tipoloji yanaşma / Azərbaycan Dillər Universiteti “Mədəniyyətlərarası dioloq: linqvstik, pedaqoji və ədəbi aspektlər” Beynəlxalq Elmi Konfransın Materialları. Bakı şəh. 25-26 noyabr 2010-cu il, Bakı: Azərbaycan Dillər Universiteti, 2010, s.300-302.
8. A.Abbasın “Batmanqılınc” romanında tarix və şəxsiyyət problemi // “Elmi axtarışlar” jurnalı, 2010, IV Toplu, s.187-191.
9. Müasir Azərbaycan və alman romanı: müqayisələr, paralellər // “Elmi xəbərlər” jurnalı, Azərbaycan Dillər Universiteti. 2011, №1, s. 239-246.
10. Müasir Azərbaycan və alman romanında insan problemi / AMEA-nın doktorantlarının elmi konfransının materialları (Məcmuə), Bakı şəh. may 2011, Bakı: Elm, 2011, s. 288-291.
11. Çağdaş alman romanında mənəvi-əxlaqi axtarışlar // “Dil və ədəbiyyat” jurnalı, Azərbaycan Dillər Universiteti. 2011, №1, s. 231-240.
12. Elçinin “Ölüm hökmü” romanında sosial-mənəvi problemlərin bədii inikası // “Filologiya məsələləri” jurnalı, 2011, №12, s.374-386.
13. Çağdaş roman yaradıcılığında şəxsiyyətin özgələşməsi problemi // “Filologiya məsələləri” jurnalı, 2012, №10, s. 402-412.

14. Çağdaş roman yaradıcılığında insan mövcudluğunun mahiyyəti və onun dərk edilməsi problemi // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri. Humanitar seriya,. 2013, №4, s.223-230.
15. Milli-tarixi yaddaş və Çağdaş Azərbaycan romanı / Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Azərbaycan Dillər Universitetinə həvalə olunmuş "Postmodern dövrdə milli özünüdərk" bölməsinin Materialları. Bakı şəh. 31oktyabr-1 noyabr 2013-cü il. Bakı: 2013, s. 236-250.
16. Müasir romanlarda dəyişən zaman və başqalaşan dünya modeli // "Filologiya məsələləri" jurnalı, 2014, №3, s. 272-279.
17. K.Kraxtın "1979" adlı romanı: postmodernist tendensiya / Azərbaycan Dillər Universiteti "XXI əsr Mədəni Paradiqması Multimədəni Aspektdə" Respublika Elmi-Praktik Konfransının Materialları. Bakı şəh, 25-26 noyabr 2014-cü il. Bakı: 2014, s. 45-46.
18. Художественное выражение социальных и политических проблем в современном романе как реинтерпретация личности // Вiсник Днiпропетровського унiверситету iменi Альфреда Нобеля. Серiя «Фiлологiчнi науки». 2014, №1 (7), с.104-108.
19. Müasir Azərbaycan və alman romanlarında müharibə mövzusunun bədii inikası // Ədəbi əlaqələr. Bakı: Elm və təhsil, 2015, IX Toplu, s.75-80.
20. Müasir romanlarda yaradıcı insanın bədii obrazı // Dil və ədəbiyyat. Bakı Dövlət Universiteti. Beynəlxalq elmi-nəzəri jurnal, Bakı: 2015, № 2 (94), s.235-238.
21. Azərbaycan və alman romanı: keçmiş və bu gün / Azərbaycan Dillər Universiteti "Xarici dillərin tədrisinin aktual problemləri" Respublika elmi-praktiki konfransının materialları. Bakı şəh. 5-6 may 2016 - Bakı: 2016, s. 504-506.
22. Azərbaycan və alman romanlarında oxşar tendensiya / Bakı Dövlət Universiteti Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş Müasir Türkologiya: dünən, bu gün və sabah (problemlər və perspektivlər) Respublika elmi konfransının materialları. Bakı şəh. 28 dekabr 2016-ci il. Bakı: 2016, s.377-380.
23. Müasir roman yaradıcılığında intellektual qəhrəmanın özünütəsdiq problemi // Dil və ədəbiyyat. Bakı Dövlət Universiteti. Beynəlxalq elmi-nəzəri jurnal, Bakı: 2017, №2 (102), s.230-233

**РОЙА МЕФТУН кызы МУРШУДОВА**

## ЖАНР РОМАНА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ И НЕМЕЦКОЙ ЛИТЕРАТУРЕ (1980-2005 гг)

### РЕЗЮМЕ

В XX веке в азербайджанской и в немецкой литературе развитию жанра романа характерно отражение общественно-политических событий, происходивших в жизни двух народов, которые со всей своей реальностью были отражены в литературе. Диссертация состоит из введения, трех глав, заключения и списка литературы.

“Введение” обосновывает актуальность темы, где показаны основные цели и задачи, уровень изучения темы, научная новизна, объясняются теоретико-методологические основы и апробация.

Первый раздел диссертации под названием “Характерные особенности жанра романа в современной азербайджанской и немецкой литературе” состоит из двух подразделов. Первый подраздел назван “Из истории развития азербайджанского и немецкого жанров романа”, где изучены этапы исторического развития романического творчества в вышеназванных литературах. Во втором подразделе под названием «Азербайджанские и немецкие романы в новом этапе», были изучены азербайджанские и немецкие романы периода после 80-х годов и выявлены общие и отличительные черты.

Вторая глава диссертации называется “Проблема личности и общества в современных азербайджанских и немецких романах”. В этой главе, состоящей из двух подразделов изучена проблема отчуждения личности в обществе и вопросы художественного образа творческого человека в современных романах.

Третья глава диссертации называется “Реальность жизни и художественная правдивость в современных азербайджанских и немецких романах”. Эта глава состоит из трех подразделов. Первый подраздел “Тема войны в романе: индивидуальные и отличительные подходы” посвящен исследованию темы войны в азербайджанских и немецких романах. Во втором подразделе под названием “Понятие социально-духовной жизни в современном романическом творчестве” была изучена социальная жизнь и духовный мир человека в Азербайджанском и немецком романе, а в третьем подразделе “Память, как основной художественный дискурс в азербайджанском и немецком романе”, вопрос памяти исследуется как основной художественный

дискурс романа.  Научно-практические выводы, полученные по итогам исследования диссертации были изложены в разделе “Заключение”.

**ROYA MEFTUN gizi MURSHUDOVA**

## GENRE OF THE NOVEL IN THE MODERN AZERBAIJAN AND GERMAN LITERATURE (1980-2005)

### SUMMARY

In the 20th century, the development of the genre of the novel in Azerbaijani and German literature is characterized by a reflection of socio-political events taking place in the life of two nations, which, with all their reality, have been reflected in literature. The dissertation consists of an introduction, three chapters, a conclusion and a list of literature.

“Introduction” justifies the relevance of the topic, which shows the main goals and objectives, the level of study of the topic, scientific novelty, explains the theoretical and methodological foundations and approbation.

The first section of the dissertation, entitled “Characteristic features of the genre of the novel in modern Azerbaijani and German literature”, consists of two subsections. The first subsection is entitled “From the History of the Development of the Azerbaijani and German Genres of the Novel”, where the stages of the historical development of novelistic creativity in the above-mentioned literatures have been studied. In the second subsection, entitled “Azerbaijani and German novels in a new stage,” Azerbaijani and German novels of the period after the 1980s were studied and common and distinctive features were revealed.

The second chapter of the thesis is called "The problem of the individual and society in modern Azerbaijani and German novels." In this chapter, consisting of two subsections, the problem of the alienation of the individual in society and the questions of the artistic image of the creative person in contemporary novels are studied.

The third chapter of the thesis is called "The reality of life and artistic truthfulness in modern Azerbaijani and German novels." This chapter consists of three subsections. The first subsection "The theme of the war in the novel: individual and distinctive approaches" is devoted to the study of the topic of war in Azerbaijani and German novels. In the second sub-section entitled "The concept of social and spiritual life in the modern novelistic creativity", the social life and spiritual world of a person were studied in the Azerbaijani and German novels, and in the third subsection "Memory as the main artistic discourse in the Azerbaijani and German novel" Is studied as the main artistic discourse of the novel.

The scientific and practical conclusions obtained on the basis of the research results of the dissertation were presented in the section "Conclusion".

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ ГЯНДЖАВИ**

*На правах рукописи*

**РОЙА МЕФТУН кызы МУРШУДОВА**

# ЖАНР РОМАНА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ И НЕМЕЦКОЙ ЛИТЕРАТУРЕ (1980-2005 гг)

5716.01-Азербайджанская литература
5718.01 -Миравая литература (Немецкая литература)

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ - 2017**